*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   5 may 2018-ci il   № 34 (2250)   Qiymәti 25 qәpik


*Ön xətdən reportaj*

# Ruhumuzun işığıdı bu inamın işığı



*Dağların qarı əriyir, yollar-yamaclar yaşıllaşır, dağ çaylarının suyu bollaşır, təkəmseyrək otlar cücərsə də, ötənilki izlər bilinir. O izlər yüksəkliklərə, yüksəkliklərə söykənən hündür təpəliklərə yol göstəricisidi. Yaxın günlərdə o izlər də cığıra dönəcək. O izlər bizi səngərlərə - Lələtəpədə döyüş növbətçiliyi aparanlara çatdıracaq. Hərdən mənə elə gəlir ki, məhrəmlərinin nəfəsini duyan izlər, cığırlar itib batmır. Onu unutmayanların, ona dönənlərin sədaqətində yaşayır. İzlər cığır, cığırlar yol olunca "Bizi yaşadın ki, sizi yaşadaq" - harayı kəsilməz...*

Yaşıl örpəkli yamacları görüncə Cıdır düzünü, Qırxqız yaylağını, Ərimgəldi qayasının, Kirsin, Ərgünəşin ətəklərini xatırlayıram: oralar necə yaşıllaşıb görəsən? O yaşıllığın ərişiarğacı sarımtıldı yəqin..." - ürəyimdən gizilti keçir. Döyüş növbətçiliyi aparanlara deyəcəyik ki, siz varsınız deyə dağların əlləri daş altda qalmayacaq, siz varsınız deyə Lələtəpə belə vüqarlıdı, Lələtəpənin dağ vüqarlı qardaşısınız deyə belə hünərvərsiniz, vətənpərvərsiniz. Bir də deyəcəyik ki, qışda cığıraizə qar qalansa da, könülləri könüllərə qovuşduran yollar heç zaman ot göyərtməyib, göyərtməyəcək. Sizi həmişə anmışıq, indi əhatənizdəyik, salam verib əleyk aldığımız igidlər...

Düşüncələrim əsgərlərimizi görüncə daha da dönməzləşir. Bu duyğuları müharibədə, atəşkəsdən sonra ön xətdə çox yaşamışam. Həmin anlar xalq şairi Zəlimxan Yaqub demişkən, ömrümə yazılan dəqiqələr olub. Ömür bildiyim həmin anlar mənə Yusif Mirzəyevi tanıdıb, Vəzir Orucovu, Vəzir Sədiyevi, Rasim İbrahimovu, Şirin Mirzəyevi,... tanıdıb...

Bu kövrək xatırlamanın cazibəsindəykən Lələtəpəyə - ruhumuzun vüqar, əzəmət ünvanına çatırıq. Bayaqdan bəri düşüncələrimin nizamını pozmaq istəməyən kapitan Nahid Rzayev əsgərləri görüncə insafsız sükutu çilikləyir.

- Təbiətin insanların xarakterinə təsiri həmişə olub. Belə mövqelərdə - yüksəkliklərdə...

- ... Yüksəklik həm də ucalıqdı...

- Bəli, ucalıqlarda xidmət edən əsgərlərimizin dözümlü, qətiyyətli, vüqarlı olması təkcə təbiətin təsiriylə bağlı deyil. Vətənpərvərlik amili var, dünya görüşü var, hərbi anda sədaqət var...

**(Ardı 4-cü səhifədə)**

# Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu

## II məqalə

Sovet dövründə Naxçıvanda 75-ci mexanikləşdirilmiş motoatıcı diviziyası və 41-ci sərhəd dəstəsi yerləşirdi. Azərbaycan öz müstəqilliyini elan edəndən sonra İttifaq qoşunlarına rəhbərliyi əlinə almış MDB qoşun komandanlığı bu hissələri bütün əmlakı ilə birlikdə Naxçıvandan çıxarmaq istəyirdi. Heydər Əliyev çox böyük səriştə və müdrikliklə bu təxribatın qarşısını aldı, 75-ci diviziyanın və 41-ci dəstənin rəhbərliyi ilə dəfələrlə danışıqlar apardı, yaranmış yeni tarixi şəraiti onlara anlatdı və onlardan tələb etdi ki, Zaqafqaziya qoşun komandanlığı ilə əlaqə saxlayaraq hərbi əmlakın təhvil verilməsini razılaşdırsınlar. İstər Zaqafqaziya qoşun komandanlığı, istərsə də MDB qoşun komandanlığı Naxçıvandakı hərbi əmlakın bütünlüklə təhvil verilməsinə razı deyildi. Bununla belə Heydər Əliyevin iradəsi və ardıcıllığı burada da qalib gəldi və qəbul edilən bütün hərbi əmlak Azərbaycanın Müdafiə Nazirliyinin nümayəndələrinə təhvil verildi.

1993-cü ilin iyununda Azərbaycan xalqının tələbi ilə respublika rəhbərliyinə qayıdandan sonra Heydər Əliyevin öz üzərinə götürdüyü xilaskarlıq missiyası həm də Azərbaycan Ordusunun xilası ilə bağlı idi. Respublikada son dərəcə mürəkkəb bir vəziyyətdə rəhbərliyə dəvət olunan Heydər Əliyev Azərbaycanın müstəqilliyini, Azərbaycan Ordusunu məhv olmaqdan xilas etdi, Azərbaycan xalqını sonsuz fəlakətlərdən qurtardı. 1993-cü ilin yayında Azərbaycanda ən yüksək zirvəsinə çatmış gərginliyin daxili səbəblərinin bir tərəfində siyasi böhran dayanırdısa, bir tərəfində də Azərbaycan Ordusunun böhranı dayanırdı. Çünki siyasi xaosun, daxili çəkişmələrin, hakimiyyət uğrunda, hakimiyyəti idarə etməyə qabiliyyəti və haqqı olmayan insanların daxili mübarizəsinin alovlandığı bir vaxtda ayrı-ayrı şəxslər ordunu parçalayıb qanunsuz əməllərin icrasına səfərbər etməklə Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini çox ciddi və təhlükəli sınaqlar qarşısında qoydular. Gəncədə vətəndaş müharibəsi təhlükəsini yaradan da parçalanmış ordu qüvvələrinin qanunsuz əməllərə cəlb edilməsi idi, Lənkəranda separatizmin alovlanmasına yol açan da yenə buradakı cinayətkar şəxslərin ordu hissələrinə nəzarətin ələ keçirilməsi idi. Belə hallar bütün cəbhə boyu da müşahidə edilirdi.

Azərbaycanın ərazi bütövlüyünün qorunması, erməni təcavüzünə qarşı mübarizə aparılması üçün yaradılmış olan ordu hissələri siyasi qruplara bölünərək bir-birinə qarşı cəbhə tutmaqla xalqın özünü fəlakətə sürükləyirdilər. Dövlət rəhbərliyi isə belə bir vəziyyətdə aciz duruma düşərək iflic olmuşdu. Tarix bir daha sübut etdi ki, xalqı ağır durumdan onu öz ətrafında birləşdirməyi bacaran böyük şəxsiyyətlər çıxara bilərlər. Heydər Əliyev də belə böyük bir şəxsiyyət idi. Xalqının ağır durumunda o, xalqın ümid yerinə çevrildi, xalqı öz ətrafında birləşdirərək onun dəstəyinə arxalandı, onu rastlaşmış olduğu böyük fəlakətlərdən xilas etdi. Heydər Əliyevin müstəsna fəaliyyəti, davamlı ardıcıllığı, milli mənafelərə sədaqəti nəticəsində ölkə vətəndaş qarşıdurmasından nicat tapdı, onun çağırışı ilə ayağa qalxmış xalqın qəzəbi isə respublikanı etnik əlamətlərinə görə parçalamaq istəyənləri pərən-pərən saldı.



Heydər Əliyev həm də yeni ordu quruculuğunun əsasını qoydu. Bu quruculuğun tarixi isə onun radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətindən başlayır. Bu müraciət Azərbaycanda hərbi-siyasi vəziyyətin son dərəcə mürəkkəbləşdiyi bir zamanda ortaya çıxdı. Heydər Əliyevin diplomatik fəaliyyəti nəticəsində Ermənistan rəhbərliyi dəfələrlə atəşin kəsilməsinə, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə söz versə də, erməni tərəfi xislətinə uyğun olaraq öz sözünə əməl etmədi, əldə olunmuş qısa müddətli atəşkəslərdən isə öz hərbi qüvvələrinin bərpası, yenidən qruplaşdırılması üçün istifadə etdi. Bu təcavüzə layiqli müqavimət göstərə biləcək qüvvələr isə Azərbaycanda yox idi. Mövcud olan hərbi hissələrin çoxu da dövlətin deyil, hələ də ayrı-ayrı adamların nəzarəti altında idi və belə hissələr, bir qayda olaraq, cəbhə bölgəsində təxribatlar törətməklə məşğul idilər. Belə bir zamanda Heydər Əliyev xalqa müraciət etdi, xalqa güvəndiyini bildirdi və xalqdan da kömək istədi.

Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti Azərbaycanda ordu quruculuğunun əsaslarını müəyyənləşdirəcək tarixi bir sənəddir. Bu sənəddə hərb quruculuğunun dünya təcrübəsinin Heydər Əliyev təfəkküründən keçmiş qənaətləri öz əksini tapmışdır. Bu qənaətlər daha çox Heydər Əliyevin dövlətçilik təfəkkürünə və təcrübəsinə əsaslanır və ona görə də bu müraciətdən əldə edilən qənaətlər həyati olmaqla, həm də Azərbaycan reallıqlarını əks etdirirdi.

Strateji planda ordu quruculuğunun istiqamətlərini müəyyənləşdirəcək elə bir məsələ yoxdur ki, bu müraciətdə öz əksini tapmamış olsun. O cümlədən ordu və dövlət, ordu və maddi baza, ordu və mənəviyyat, ordu və xalq, ordu və milli kadrlar, ordu və nizam-intizam və s. kimi əsaslı məsələlərin vəziyyəti, əhəmiyyəti və əldə edilməsi yolları Heydər Əliyev zəkasının işığında bu müraciətdə son dərəcə aydın və anlaşıqlı şəkildə təhlil edilmişdir.

Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciətində əvvəlcə ölkədə yaranmış mürəkkəb vəziyyətin səbəbləri əhatəli şəkildə təhlil olundu, belə vəziyyətin davam etməsinin hara gətirib çıxara biləcəyi açıqlığı ilə xalqa çatdırıldı və həmin vəziyyətdən çıxmağın yolları ətrafında fikir mübadiləsi aparıldı. Heydər Əliyev birmənalı şəkildə bəyan etdi ki, Azərbaycan Ordusu yenidən qurulmalıdır, bu ordu xalqın, dövlətin və müstəqilliyin müdafiəsində durmağa qadir olan bir orduya çevrilməlidir. Xalqımızın böyük rəhbəri belə bir ordunun yaradılması yollarını da göstərdi, qarşıda dayanan vəzifələri müəyyənləşdirdi.

Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti yeni ordu quruculuğunun nəzəri əsaslarını müəyyənləşdirən konseptual bir sənəd olmaqla bərabər, həm də xalqa edilən bir çağırış idi. Ulu Öndər bu müraciətlə bütün xalqı, siyasi mənsubiyyətindən asılı olmayaraq bütün cəmiyyəti Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifə ətrafında birləşməyə çağırdı və onun bu çağırışı cəmiyyətdə və xalq arasında böyük əks-səda doğurdu. Xalq şübhə etmədi ki, bu çağırış böyük xilaskarın çağırışıdır və bu çağırışa səs verməklə Azərbaycanın müstəqilliyini xilas etmək, Azərbaycan xalqının güvən yeri olacaq Vətəninə, xalqına sədaqətli yeni milli ordunu formalaşdırmaq olar.

2 noyabr 1993-cü il tarixli müraciət ilk növbədə Heydər Əliyevin özü tərəfindən fəaliyyət proqramına çevrildi, bu müraciətdə qaldırılan məsələlərin icrası üçün onun tərəfindən yorulmaz fəaliyyət ortaya qoyuldu. Heydər Əliyev müraciətindən dərhal sonra respublika ictimaiyyətinin ən müxtəlif nümayəndələri, müharibə veteranları, siyasi partiyaların nümayəndələri ilə görüşdü, onlarla məsləhətləşmələr apardı, yerlərdə qaldırılan təşəbbüslər Heydər Əliyev tərəfindən dəstəkləndi, yeni ordu formalaşdırılması üçün təşkilati işlər geniş vüsət aldı.

Heydər Əliyev müraciətində toxunduğu nöqsanların aradan qaldırılması üçün çevik qərarlar qəbul etdi, orduya rəhbərliyi çətinləşdirən əhəmiyyətsiz idarəetmə strukturları ləğv edildi, ayrı-ayrı şəxslərin nəzarətində olan azsaylı hissələr ki, siyahı üzrə adı keçən bütün şəxsi heyətin təminatını alırdılar, ləğv edildilər, nizam və intizamı lazımi tələblərə cavab verməyən şəxslər ordudan uzaqlaşdırıldılar.

Ordu quruculuğuna sağlam bir nəfəs gəldi, onun bünövrəsi mövcud çirkinliklərdən kifayət qədər təmizləndi, şəxsi heyətində bir canlanma yarandı, yeni-yeni hərbi hissələrin formalaşdırılmasına başlandı. Bu yeni hərbi hissələrin rəhbərliyinə Vətəninə sədaqətli zabitlərin gətirilməsi nəzarət altına alındı.

İstər 2 noyabr 1993-cü il tarixli müraciətdə, istərsə də Heydər Əliyevin sonrakı çıxış və müraciətlərində hərbi səfərbərlik işinin yenidən qurulması, bu işə məsuliyyət daşıyan hərbi komissarlıqlar sistemində mövcud olan qanunsuzluqların tezliklə aradan qaldırılması məsələləri kifayət qədər ciddi vəzifə kimi qarşıya qoyuldu. Ulu Öndər bu məsələlərlə bağlı həm dövlət strukturlarının nümayəndələri, həm də ictimaiyyətin nümayəndələri ilə təkrar-təkrar görüşlər keçirdi. Bununla Heydər Əliyev bir tərəfdən çağırış-səfərbərlik işlərinə bir nizamlılıq, qanunilik gətirdi, bir tərəfdən də bu işə ümumxalq münasibəti yaratdı, xalqın çağırış işinə qayğısını gücləndirdi, hərbi xidməti tərk etmiş kontingentlə konkret işlər aparıldı, onların xidmətə qayıtmaları üçün qayğı ilə əhatə olunmuş tələbkar mühit yaradıldı.

Bunların ardınca da Heydər Əliyev bir-birinin ardınca cəbhə boyunca yerləşən hərbi hissələrə yollandı, orada yerləşən rayonların ictimaiyyəti ilə görüşlər keçirdi. Silahlı Qüvvələrin yenidən formalaşdırılmaqda olan hissə və bölmələrinin vəziyyəti, cəbhə qayğıları, döyüş əhval-ruhiyyəsi yerində yoxlanıldı, görülməli olan işlərin icrası üçün konkret tapşırıqlar müəyyənləşdirildi.

Heydər Əliyev Azərbaycan torpaqlarının müdafiəsi üçün bir tərəfdən bütün dövlət orqanlarını hərbi-təşkilati işə səfərbər etdi, onların gərgin və davamlı fəaliyyətinə nail oldu, bir tərəfdən də, bütün xalqı Vətənin müdafiəsinə səfərbər etdi, xalqla cəbhə arasındakı əlaqələri gücləndirdi, xalqın cəbhədə vuruşanlara göstərdiyi qayğısına bir canlanma gətirdi.

Bütün bunlar da tezliklə öz nəticələrini göstərməyə başladı. Azərbaycanın hərbi qüvvələrinin əvvəlcə Füzuli istiqamətində, sonra da Ağdam-Tərtər istiqamətində apardığı uğurlu döyüşlər Azərbaycan Ordusunun simasının dəyişdiyini nümayiş etdirdi və bu dəyişiklik düşmən qüvvələrini də təşvişə saldı. Heydər Əliyevin yenicə yaratmağa başladığı qüvvələr qarşısında böyük itkilər verən düşmən qüvvələri atəşin dayandırılmasına daha ciddi yanaşdılar və bunun nəticəsi kimi 1994-cü ilin mayında cəbhədə atəşkəs elan edildi.

Atəşkəsin əldə edilməsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşmasının yeni bir dövrünün başlanğıcını qoydu. Döyüşlərin dayandırılması Silahlı Qüvvələrin daha dinc şəkildə təşkilatlanması üçün münasib bir fürsət yaratdı. Xalqımızın Ümummilli Lideri bəyan edirdi ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının dinc yoluna üstünlük verir və bütün fəaliyyəti boyu da bu istiqamətdə xüsusi bir ardıcıllıq nümayiş etdirdi. Bununla belə, Heydər Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təkmilləşdirilməsini və gücləndirilməsini dövlətin prioritetləri səviyyəsinə qaldırdı, bu sahəni daimi diqqət altına aldı. O, Azərbaycan Ordusunu müstəqilliyin atributlarından biri kimi görürdü və bildirirdi ki, döyüşlərin gedib-getməməyindən asılı olmayaraq Azərbaycan Ordusu möhkəmləndirilməlidir. Heydər Əliyev bunu Azərbaycanın müstəqilliyinin davamlılığının şərtlərindən biri kimi qəbul edirdi.

2 noyabr 1993-cü il tarixli müraciətindən sonra ordu quruculuğu sahəsində başlanan uğurlu işlər atəşkəs dövründə daha yaradıcı şəkildə davam etdirildi və qısa müddətdən sonra Azərbaycan Ordusu çox qüdrətli bir qüvvəyə çevrildi. Heydər Əliyev Azərbaycan Ordusunun təşkilatlanmasını, böyük qüvvəyə çevrilməsini çox böyük məmnunluqla qeyd edirdi. O deyirdi: "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".

Azərbaycan Ordusunun qısa müddət ərzində böyük inkişaf yolu keçməsinin və bölgənin ən güclü qüvvələrinə çevrilməsinin bir sıra səbəbləri vardır. Azərbaycan Ordusunun güclənməsinin və uğurlu şəkildə təşkilatlanmasının ən başlıca səbəbi, sözsüz ki, ordu quruculuğuna rəhbərliyin Heydər Əliyev tərəfindən edilməsi idi. Azərbaycanın müstəqilliyinə, xalqının milli maraqlarına dərindən bağlı olan və ona öz həyatını belə bağışlamağa hazır olan böyük zəka sahibi, həmişəyaşar ulu öndər Heydər Əliyev müstəsna dövlətçilik təcrübəsi, təşkilatçılıq bacarığı, yorulmaz işgüzarlığı ilə ordu quruculuğuna xüsusi bir önəm verdi, bu prosesin siyasətini çox böyük incəlik və dəqiqliklə müəyyənləşdirdi və onun icrasında məqsədyönlü bir çeviklik nümayiş etdirdi.

**Mehman SÜLEYMANOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik**

# “Ruhu zəfərlərə çağırır bizi”

## Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider, əbədiyaşar Ali Baş Komandanımız Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi Azərbaycan Ordusunda da geniş qeyd edilir. Ordumuzun şəxsi heyəti Ulu Öndərin 95 illik yubileyini döyüş və mənəvi-psixoloji hazırlıqda, təlimlərdə qazanılmış uğur və nailiyyətlərlə qarşılayır. Keçirilən silsilə tədbirlərdə şəxsi heyət Heydər Əliyev ideyalarına bundan sonra da sadiq olacağını qəti şəkildə bildirir.*





Bu fikirlər ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə mayın 3-də Müdafiə Nazirliyinin "N" hərbi hissəsində "Ruhu zəfərlərə çağırır bizi" mövzusunda keçirilən tədbirdə səsləndirilib.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzüblər.

Sonra ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olan oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani xalqımızın ümummilli lideri Heydər Əliyevin Vətənə, xalqa həsr olunan və hər kəsə örnək olan ömür yolundan danışaraq diqqətə çatdırıb ki, dahi rəhbər XX əsrin sonlarında - XXI əsrin əvvəllərində ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin ilhamvericisi və təşkilatçısı olub. Onun dünya siyasəti xəzinəsinə daxil olmuş nəhəng fəaliyyəti Azərbaycan xalqının əsrlər boyu qəlbində yaşatdığı müstəqil dövlətçilik arzusunun gerçəkliyə çevrilməsində mühüm rol oynayıb. Bu gün də Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Azərbaycanı dünyaya tanıdan, dünyada ən böyük azərbaycanlı kimi tanınan Ulu Öndərimizin xatirəsi daim ürəklərdə yaşayır. Azərbaycan əsgəri unudulmaz dahi liderimizin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Prezident İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda yeni-yeni zirvələr fəth etməkdə, Azərbaycanın hərb tarixinə şanlı səhifələr yazmaqdadır.

Milli Məclisin aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun Heydər Əliyev haqqında xatirələri tədbir iştirakçılarında böyük maraq oyadıb. E.İbrahimov vurğulayıb ki, 1969-1982-ci illərdə Heydər Əliyevin dahiyanə idarəçilik qabiliyyəti, strateji təfəkkürü və gələcəyi öncədən görmək məharəti sayəsində respublikamız sürətli inkişaf yolu qət edib, keçmiş ittifaqın qabaqcıl respublikaları sırasına çıxıb. Bu illər tarixə xalqımızın siyasi, iqtisadi, mədəni yüksəliş dövrü kimi daxil olaraq, xalqımızın milli mənlik şüurunun oyanışına təkan verib. Həmin dövrdə imperiyanın tərkibində olmağımıza baxmayaraq, Azərbaycanın gələcək siyasi və dövlət müstəqilliyi üçün əsaslı zəmin yaranıb və möhkəm bünövrə qoyulub.

Komitə sədri tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, Azərbaycanın "olum, ya ölüm" ayrıcında qaldığı, xalqımızın müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzləşdiyi 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Heydər Əliyevin ölkəmizin rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edib, milli qurtuluş günü kimi tarixə yazılıb. Müasir mütəşəkkil Azərbaycan Ordusunun yaranması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biridir.

Milli Məclisin deputatı, professor Elman Nəsirov çıxış edərək Heydər Əliyevin siyasətinin bu gün Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Deputat əmin olduğunu bildirib ki, Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aprel zəfərini təkrarlamağa, ərazi bütövlüyümüzü təmin etməyə hər an hazırdır.

Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərov qonaqlara təşəkkür edərək, məzunu olduğu Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Azərbaycanda ordu quruculuğunda müstəsna xidmətlərindən danışıb. R.Əkbərov ulu öndər Heydər Əliyevin bu məktəbin yubileyində iştirak etməsinin ən xoş xatirə kimi daim xatırlandığını deyib. Qeyd edib ki, Ulu Öndər ölkəmizə rəhbərliyinin bütün dövrlərində Azərbaycanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında olduğu kimi, ordu quruculuğu və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi, hərbi peşələrə yiyələnməsi istiqamətində də tarixi xidmətlər göstərib. “Bu gün Azərbaycan Ordusunun bütün qoşun növlərində, birlik və birləşmələrində ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirmələri olan minlərlə zabit Vətənə və dövlətə sədaqətlə xidmət edir, əsgəri borclarını şərəflə yerinə yetirir.”



Rövşən Əkbərov Naxçıvanın müdafiəsində olarkən ümummilli lider Heydər Əliyev ilə görüşlərini xatırlayıb. Bildirib ki, əbədiyaşar liderimiz Heydər Əliyevin ruhu bu gün də bizi zəfərlərə çağırır və biz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzü təmin etməyə tam hazırıq.

Ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib ki, cəbhə bölgələrində müharibənin qızğın vaxtında Ulu Öndərin ön xəttə gəlib, şəxsi heyətlə görüşməsi, əsgər və zabitlərin problem və qayğıları ilə maraqlanması həmin dövrdə şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratmaqla yanaşı, bu gün də orduda xatırlanır. Ş.Ramaldanov Füzuli rayonunun 20-dən çox yaşayış məntəqəsinin və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin azad olunması uğrunda döyüşlərdə iştirakını, həmin vaxt Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan əsgərinin üzərində Ümummilli Liderin şəkilləri olan tanklarla hücuma keçməsini xatırladıb. Ş.Ramaldanov bu gün ehtiyatda olmasına baxmayaraq, bütün veteranların, qazilərin yenidən döyüşlərə atılmağa hazır olduqlarını deyib.

Sumqayıt hərbi prokuroru, ədliyyə polkovniki Zöhrab Kazımov qeyd edib ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə qayıdışından sonra vahid mərkəzdən idarə olunan nizami ordu yaranıb. “Ordu quruculuğu prosesi bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün bütün hüquq mühafizə orqanları ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirirlər.”

Tədbirə Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının ifasında ədəbi-musiqili xoreoqrafiq kompozisiya ilə yekun vurulub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar əsgər Nurlan MEHDİYEVİNDİR**

AZƏRBAYCAN ORDUSU

# “Hərbi təbabətin aktual problemləri” mövzusunda elmi-praktik konfrans

*Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsində Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş “Hərbi təbabətin aktual problemləri” mövzusunda elmi-praktik konfrans keçirildi.*



Konfransda Müdafiə Nazirliyinin ali rütbəli zabitləri, hərbi tibb fakültəsinin, Azərbaycan Tibb Universitetinin müəllim heyəti və ictimaiyyət nümayəndələri iştirak edirdilər. Tədbirdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini, Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov çıxış nitqi ilə konfransı açıq elan etdi. Ordumuzun inkişaf yolundan danışan general-leytenant Nizam Osmanov bildirdi ki, ordunun yaranmasının 100 illiyindən danışdıqda, tarixin bizə bəxş etdiyi dahi bir rəhbər və müdrik dövlət xadimi Heydər Əliyevin əvəzolunmaz xidmətlərini xüsusi vurğulamaq lazımdır. “Ümummilli Liderin Azərbaycanın gələcəyini düşünərək atdığı uğurlu addımlardan biri də gəncləri Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə təhsil almaları və hərbi biliklərə yiyələnmələri üçün göndərməsi idi. Bu addım həm Azərbaycanın elmi və kadr potensialının artmasına, həm də xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliğinə öz töhfəsini verdi. Görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan Hərbi Liseyin məhz həmin dövrdə yaradılması da Heydər Əliyevin müdrikliyinin və uzaqgörənliyinin bir daha sübutudur. Belə bir təhsil müəssisəsinin Azərbaycanda yaradılmasına məhz Ulu Öndər kimi qətiyyətli və cəsarətli lider nail ola bilərdi. Ümummilli Lider siyasətinin müdafiə qüdrətinin artırılmasına xidmət edən mühüm amillərindən biri də ordumuzda müasir tələblərə cavab verən hərbi həkim kadrlarının hazırlanması oldu. Onun təşəbbüsü ilə 25 may 2000-ci ildə Azərbaycan Tibb Universitetinin nəzdində Hərbi Tibb fakültəsi yaradılması barədə sərəncam imzalandı. Hal-hazırda Azərbaycan Ordusunun şəxsi heyətinin sağlamlığını təmin etmək məqsədilə Hərbi Tibb fakültəsində hərbi cərrahiyyə, hərbi terapiya, tibb xidmətinin təşkili və taktikası, tibbi profilaktika kafedraları yaradılmışdır. Bu kafedralarda hərbi həkimlərin, feldşerlərin hazırlanması və digər tibb sahələri üzrə mütəxəssislərin peşəkarlıqlarının artırılması və geniş təcrübəyə malik olmaları istiqamətində aparılan işlərin müvəffəqiyyətlə davam etdirilməsi göz qabağındadır.”

“Ali Baş Komandan İlham Əliyevin etimadını layiqincə doğrultmaq orduda xidmət edən hər kəsin vacib vəzifəsidir”, - deyən general-leytenant Nizam Osmanov çıxışını davam etdirərək vurğuladı ki, Ulu Öndərin siyasi kursu onun layiqli davamçısı, ölkə başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. “Onun sonsuz diqqət və qayğısı nəticəsində ordumuzun hər bir sahəsində sürətli inkişaf gedir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun müasir standartlara tam uyğunlaşdırılması məqsədilə aparılmış səmərəli işlər nəticəsində Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib. Müdafiə Nazirliyi rəhbərliyinin iştirakı ilə Azərbaycan Ordusu bütün birlik və birləşmələrində müxtəlif səviyyəli irimiqyaslı əməliyyat-taktiki təlimlər keçirilir ki, belə təlimlər Azərbaycan Ordusunun güc və qüdrətini nümayiş etdirir.”

Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş film izləniIdikdən sonra tibb xidməti zabitlərinin kəllə və baş beynin döyüş travmaları zamanı ixtisaslı və ixtisaslaşdırılmış yardım mərhələlərində aparılan müalicələrin nəticələrinin müqayisəli təhlili, müxtəlif ölkələrdə hərbi-tibb mütəxəssislərinin hazırlığının xüsusiyyətləri, endoskopik cərrahiyyə, XXI əsrin imkanları və görünən fərqləri mövzularında çıxışları oldu.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Ruhumuzun işığıdı bu inamın işığı



**(Əvvəli 1-ci səhifədə)**

- Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan əsgərlərimiz xalqımızı yaxın vaxtlarda ata yurdu həsrətindən, torpaq həsrətindən xilas edəcək. Cocuq Mərcanlılar kimi onlar da kəndlərinin doğmalığına sığınacaqlar, - manqa komandiri Şöhrət Hümbətov belə deyir...

Nahidin də, Şöhrətin də dediklərı kəlmələrdə gördüyüm inamı döyüş növbətçiliyindən qayıdan əsgərin baxışlarında da görürəm. Əsgər İbrahim Hüseynova həm Vətəndən Vətənə baxmağın ağrılarını, həm də kapitan Nahid Rzayevin, manqa komandiri Şöhrət Hümbətovun dediklərini xatırladıram. Bir anlığa tutulur. Baxışlarının qaynarlığı tündləşməkdədi. Nələrisə xatırlayır. Səbrlə baxıram. Bu baxış təkcə maraq deyil, həm də istəkdi. İllərin sıxılcımından xilas olacağımız anların uzaqda olmadığını əsgərdən eşitmək murazıdı.

- Biz əsgərik. Əmrləri yerinə yetiririk. Ali Baş Komandanımız əmr etsə, sözünüzün qüvvəti, Vətəndən Vətənə baxmayacağıq, dövlət sərhədlərimizin o tərəfinə baxacağıq. Bizdən sonra hərbi xidmətə gələnlər dövlət sərhədlərimizi qoruyacaq...

Əsgərin səsi, səsin qətiyyəti, o qətiyyətin dönməzliyi hamımızı bir boy da dikəldir. Səngərlərin o üzünə baxırıq. Tərpəniş hiss edilmir. Kapitan Samir Qubadov "Düşmən atəşkəsi pozanda, təxribat törətmək istəyəndə, ağır itkilərə məruz qalır. Düşmənin təmas xəttindəki bölmələrinin zabitləri zabitlərimizdən, əsgərləri əsgərlərimizdən, ordusu ordumuzdan çəkinir. 2016-cı ilin aprel döyüşləri də təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir", - deyir. Qürurla deyir, inamla deyir. "Ermənistan da, Ermənistanın havadarları da yaxşı bilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır" - kəlamı reallıqdır deyirəm. Kapitan: - Əlbəttə, - deyir və əsgərlərə, əsgərlərin ürəyinin gözləriylə səngərlərin o üzünə baxır. - Aprel zəfəri Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsini, xalqın orduya inamını, güvəncini, qələbə naminə ordu ilə xalqın birliyini təsdiqlədi.

Özünə də, bizə də könül xoşluğu olan kəlmələri həm də hərbçilərimizin dünyagörüşünün genişliyi bilirəm.

Baxışlarımı əsgərlərdən üzmədən türk şairi Nazim Hikmətin bu anlarda düşüncələrimin göyqurşağı bildiyim misralarını deyirəm:

Mən yanmasam,
Sən yanmasan,
Biz yanmasaq,
Necə çıxar
Qaranlıqlar aydınlığa?!

Fikrimi "İşğal qaranlığın əlamətidi. Azərbaycan əsgəri qaranlıqları Vətənə sevgiləriylə əridəcək" - kəlmələriylə tamamlayıram.

Araya çəkingən sükut çökür. Misralar dodaq-dodaq gəzişir. Kapitan Samir Qubadov əsgərləri adından deyir:

- Biz qaranlıqları aydınlıqlara çıxardacağıq!

Söz sözü çəkir. Xidmətini bu hərbi hissədə davam etdirən gənc əsgərlərin döyüş növbətçiliyinə necə başlamasından, əsgər dostluğundan, mənəvi-psixoloji hazırlığın yüksəldilməsi istiqamətində gerçəkləşdirilən tədbirlərdən danışırıq. Səmimi söhbətləşmədi. Əsgərlərin əhatəsində bu kəlmələşmədə zərrəcə rəsmiyyət yoxdu.



- Zabit inandırmağa çalışmamalıdı, inandırmağı bacarmalıdı, - deyirəm.

- Gənc əsgərlərlə iş hərbi nizamnamələrin tələblərinə müvafiq aparılır. Bu, həm də pedaqoji proses xarakterindədi. Əsgərlər hərbi hissəmizə müəyyən ilkin hazırlıqla gəlir. Biz bu hazırlığı genişləndirir, zənginləşdiririk. Əsgər relyeflə də ətraflı tanış olur. Bunlar vahid bir sistemdir və bu sistemə zabitlərin də, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının da, əsgərlərin də ciddi riayət etməsi döyüş növbətçiliyinin etibarlığını təmin edir. Çağırışçı hərbi xidmətə başlayanda nəyi qoruyacağını bilir. Necə qorumalı olduğunu hərbi hissədə öyrənir, - kapitan Nahid Rzayev mətləbini belə tamamlayır.

- Əsgər dostluğu haqqında hər eşitdiyim mənə könül xoşluğu verir. Eşitdiklərimi ordumuzun gücünün qaynaqlarından hesab edirəm, - deyirəm.

- Əsgər əsgərin təkcə xidmət yoldaşı deyil, həm də dostudu. Hər birinin mənəvi-psixoloji hazırlığı bu dostluğa söykənir. Azərbaycan əsgərinin dostluğu insani münasibətə, bəşəri münasibətə söykənən dostluqdu, - kapitanın dediklərini sevgilərlə dinləyən əsgər Ruslan Səfərlinin əlini sıxıram:

- Hamınızın belə əsgər olduğuna zərrəcə şübhəm yoxdu... Baxışlarınızda gördüyüm, hiss etdiyim bir mətləb bu gəlişin, bu görüşün qürurverici mənəvi rahatlığı bilirəm: siz Azərbaycan əsgərisiniz!..

Əsgərin yerə-göyə sığmayan qətiyyəti dağlarda əks-səda verir. Bayaqdan bəri vurnuxan qaraca buludlar səngərin o üzünə sürüşür, həzin-həzin əsən meh çılğınlaşır, düyünlənən yumruqlar göy üzünə dikəlir. Bu anlarda kapitan Samir Qubadovun dediklərini - "Biz qaranlıqları aydınlığa çıxardacağıq" - Azərbaycan əsgərinin döyüş ruhunun, qələbə ruhunun, "Ruhani"si bilirəm. "Ruhani"nin davamı "Misri" olacaq, "Misri"nin davamı "Cəngi" ...

Dəniz səviyyəsindən 3000 metr yüksəklikdə kəmələşdiyim əsgərlərdən bu hərbi hissənin əsgərlərindən eşitdiklərimin eynini eşitmişdim. Duyduğum inamı Azərbaycan əsgərinin hər birinin inamı bilirəm: torpaqlarımız işğaldan azad ediləcək! Ucalıqda duyulan, yaşanılan, yaşadılan bu inam dönməz inamdı. Bir az əvvəl zabitlərin də, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının da dediklərini xatırlayıram: "Əsgər üçün yüksək şərait var. Rahatlıq, istirahət, ərzaq. Dövlətin bu diqqət və qayğısı əsgərin dövlətə, dövlətçiliyə sədaqətinin təminatçısıdır. Belə şəraitdən hamımız qürurlanırıq. Mənəvi-psixoloji hazırlıq istiqamətində görülən tədbirləri asudə vaxtlarda zabitlərin söhbətləri tamamlayır. Azərbaycan Ordusunun şəxsi heyəti Ali Baş Komandanın döyüş əmrini qələbəylə başa çatdırmağa qadirdir. Bu inam xalqın inamıdı. Bu ucalıqda səslənən inam dövlətçilik tariximizə, hərbi anda sədaqətin inamıdı.

Dəfələrlə eşitdiyim bir qətiyyəti aprel döyüşlərinin iştirakçısı, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Fərman Hacıyevdən də eşidirəm:

- Əsgərlərimiz qalib əsgər kimi tərxis olunmaq istəyir.

Bu kəlmələrin Lələtəpədə - ruhumuzun vüqar, əzəmət, qürur dağında əsgərlərin hamısının dedildiyinə necə inanmayasan? Ruhumuzun işığıdı bu inamın işığı!...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Qəbələ qalasını Ulu Öndər xilas etdi

Polkovnik Telman ŞAHBAZOV,
Silahlı Qüvvələrin Hərbi Akademiyasının
Strateji Araşdırmalar və Dövlət Müdafiəsini
İdarəetmə Akademik Kursunun rəisi



Elə tarixi şəxsiyyətlər var ki, onun xatirəsi heç vaxt unudulmur, unudulmayacaq. Azərbaycanlı olmasıyla həmişə fəxr edən ulu öndər Heydər Əliyev belə tarixi şəxsiyyətlərdəndir. 95 illiyini qeyd etdiyimiz dahi rəhbərlə bağlı bir hadisəni heç vaxt unutmayacam. Bu hadisə xalqımızın qədim tarixinə çox həssas, heysiyyətli münasibətlə bağlıdır...

Heydər Əliyevin adı və xidmətləri təkcə onun doğum, anım günlərində deyil, hər yerdə və həmişə hörmət və ehtiramla yad edilir.

Heydər Əliyevin həyatı, fəaliyyəti və onun xidmətləri haqqında çox deyilib, çox yazılıb. Müasir dünyanın ən mötəbər siyasətçiləri, nüfuzlu dövlət xadimləri, onu yaxından tanıyan çox məşhur elm və sənət adamları Heydər Əliyev fenomenini səxavətlə səciyyələndirərək bu dahi şəxsiyyətin örnək ola biləcək keyfiyyətləri barədə mülahizə və fikirlərini bildirmişlər.

Heydər Əliyevin əməli fəaliyyətinin ayrı-ayrı aspektləri, tarix və memarlıq abidələrinə, onların mühafizəsinə, tədqiqinə və təbliğinə diqqət və qayğısı xüsusi araşdırma tələb edən kifayət qədər geniş bir tədqiqat mövzusudur.

Böyük tarixi şəxsiyyətin Azərbaycan xalqının mədəniyyəti, tarixi və mədəni irsi ilə bağlı gördüyü işlər tarixin çığırdaşı olub.

Ümummilli Lider, dünya şöhrətli strateq, istetadlı rəhbər, Ulu Öndər - bu epitetlər məhdud deyil. Onların ən önəmlisi Dahi İnsan epitetidir...

Azərbaycanın müxtəlif şəhər və kəndlərinə səfəri zamanı Heydər Əliyev daim oradakı memarlıq və mədəniyyət abidələrinin vəziyyəti ilə maraqlanırdı. Onlara xüsusi məhəbbət və qayğı ilə yanaşırdı. O, fəxr edirdi ki, insanlar Azərbaycanın nə qədər qədim və zəngin keçmişə malik olduğunu görüb heyrətə gələcəklər və onu qorumaq üçün əlindən gələni əsirgəmirdi.

Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələrkən ilkin olaraq gördüyü tədbirlərdən biri Azərbaycan ərazisindəki tarix və memarlıq abidələrinin qeydiyyatının dəqiqləşdirilməsi və onların yenidən yoxlanılması oldu. Bu məqsədlə bölgələrə Elmlər Akademiyasının alimləri və Mədəniyyət Nazirliyinin əməkdaşlarından ibarət işçi qrupları göndərildi. Nəticədə, əvvəllər dövlət qeydiyyatında olmayan bir çox yeni abidə aşkar edilərək qeydiyyata alındı. O da müəyyən olundu ki, əvvəllər dövlət qeydiyyatına alınmış bəzi abidələr ötən əsrin 50-60-cı illərində müəmmalı şəkildə yoxa çıxıb. Bəzi abidələrin üzərindəki kitabələrin qoparıldığı, yazılarının məhv olunduğu, yaxud da, onlara məqsədli şəkildə bu və ya digər saxta əlavələr edildiyi üzə çıxdı. Azərbaycana məxsus tarixi-mədəni dəyərlərin oğurlanıb Ermənistana aparılması, yaxud sındırılıb məhv edilməsi faktları da aşkarlandı. Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən tədbirlər sayəsində, bir tərəfdən ermənilərin iç üzü açıldı, digər tərəfdən xalqımıza məxsus tarixi və memarlıq abidələrinin mühafizəsinə və təbliğinə münasibət dəyişdi.

Müdafiə Nazirliyinin Tikinti Baş İdarəsinin sabiq rəisi, əməkdar inşaatçı, mərhum polkovnik Adil Əliyevin "Mənim xatirələrim" kitabından götürülmüş Ulu Öndərin tarixi-mədəni irsimizə münasibəti ilə bağlı prinsipial və ibrətamiz bir məqamı yada salmaq istərdim.

"1978-ci ilin aprel ayı idi. Komandir polkovnik Pitelev toplantıların birində elan etdi ki, may ayında Sov. İKP MK Siyasi Bürosu üzvülüyünə namizəd, Azərbaycan Kommunist partiyasının Birinci katibi Heydər Əliyev Qutqaşenə (indiki Qəbələyə - red.) gələcək. Ona görə də hərbi hissələrdə nizam-intizama xüsusi fikir verməli və tikinti obyektlərində işimizi daha da sürətləndirməliyik. Artıq Moskvadan bir-birinin ardınca böyük generallar gəlirdi. Ən axırda isə SSRİ Nazirlər Soveti sədrinin müavini Smirnov və onunla birgə ordu generalı gəldi. May ayının 28-də onlar Qutqaşendə Heydər Əliyevi qarşıladılar.



Azərbaycanın böyük oğlu Heydər Əliyev vəziyyətlə ətraflı maraqlandı. Ona ilk öncə RLS-in tikintisi haqda məruzə etdilər. Onu rayona yol, qaz, su çəkilməsi xüsusi maraqlandırırdı. Məruzə vaxtı o çıxış edənlərə bu sosial layihələrin həyata keçirilməsi cavabdehliyini şəxsən tapşırdı. Birdən gözlənilmədən RLS-in layihəçilərinə üz tutub elektrik xəttinin haradan keçdiyini soruşdu. Ona dərhal RLS-i təmin edən sxemin marşrutunu göstərdilər. Bir anlığına sükut yarandı və o, üzünü general Y.P.Kudrayvtsevsə tutaraq soruşdu: "Yuriy Petroviç, siz bu marşruta özünüz baxmısınız?". Kudrayvtsev belə cavab verdi: "Yox, mənim işçilərim baxıb". "Siz bilirsinizmi, layihədəki elektrik xəttini "Qəbələ" qalasının içindən aparıblar. Qəbələ qədim Alban dövlətinin paytaxtı olub, siz onu məhv etmək istəyirsiniz?"

Bir an hamı susdu. O zaman general Qelovani dedi ki, yoldaş Əliyev, biz bu səhvi aradan qaldırarıq. O, dərhal da göstərişlərini verdi.

Həmin görüşdə iştirak edən Qutqaşen rayonunun birinci katibi Abdulla Bullayev ayaqüstə sanki qurumuşdu. Axır ki, Heydər Əliyev yaranan gərginliyi aradan götürdü. İnşaatçılara öz minnətdarlığını bildirdi və tövsiyələrini verdi.

Bu böyük toplantıdan sonra Müdafiə Nazirliyinin inşaat üzrə müavini, nazirliyin mülki və hərbi mütəxəssisləri, demək olar ki, bizimlə bərabər Qutqaşendə qulluq edirdi.

Layihə institutunun işçiləri tezliklə layihədə dəyişikliklər etdilər. Qəbələ qalası işıq xəttinin marşrutundan kənarda qaldı və beləcə, bu tarixi abidəmiz xilas olundu"...

Bir neçə gündən sonra Qəbələ məsələsi Mərkəzi Komitənin büro iclasının müzakirəsinə çıxarıldı. Heydər Əliyevin təklifi ilə tarixi-mədəni irsi dağıtmaq cəhdlərinə görə çox yüksəkçinli hərbçilərdən bir neçəsinə ağır partiya cəzası verildi. Olaya münasibətdə seyrici mövqe tutduqlarına və prinsipsizliklərinə görə Elmlər Akademiyasının və Qəbələ rayonunun bir neçə məsul işçisi də MK bürosu tərəfindən cəzalandırıldı. Aradan bir neçə gün keçəndən sonra məhz Heydər Əliyevin tapşırığı ilə Qəbələ şəhərinin ərazisi tarix və mədəniyyət qoruğu elan edildi. Orada çox genişmiqyaslı tədqiqat və bəndsalma işlərinə başlanıldı.

Ulu Öndərin keçmişimizin yadigarı olan tarix və mədəniyyət abidələrinə olan diqqət və qayğısını əks etdirən çoxsaylı misallar çəkmək olar. Onun İçəri şəhərdə abidələrin konservasiyası və qorunması, Şirvanşahlar sarayı, Atəşgah, Möminəxatun türbəsi, Nizami Gəncəvinin məqbərəsi, Şabran şəhərinin arxeoloji tədqiqi ilə bağlı tarixi əhəmiyyətli sərəncam və göstərişləri, sözün əsl mənasında, hər bir dövlət xadimi və hökumət rəsmisi üçün tarixi-mədəni irsə qayğıkeş münasibət nümunəsidir.

Çağdaş dönəmdə Ümummilli Liderin layiqli davamçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyeva mədəni irsin qorunması və zənginləşməsi istiqamətində böyük işlər görürlər. Hazırda Bakı və Azərbaycanın digər şəhərlərinin infrastrukturunun sürətli inkişafı nəticəsində çoxsaylı mədəni obyektlərin qorunması zəruriyyəti daha da aktuallaşmışdır. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev unikal abidələrin mühafizəsinin, sözün əsl mənasında, qarantıdır. O, abidələrin ilkin görkəminin saxlanmasına yönəlmiş fərmanlar və sərəncamlar imzalamışdır. Bunlardan "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində tarixi-memarlıq abidələrinin bərpası və qorunması haqqında" və "Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında" sərəncamlar xüsusilə böyük önəm daşıyır.

Bir çox genişmiqyaslı mədəni layihələr Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilir. Bu işlər, ilk növbədə, beynəlxalq səviyyəli festivalların, sərgilərin keçirilməsi, tarixi və dini abidələrin bərpası, mədəniyyət mərkəzləri və muzeylərin tikintisi və s. layihələrin reallaşdırılması ilə bağlıdır.

Ulu öndər Heydər Əliyev gələcəyə daim inamla baxırdı, Azərbaycan xalqının şüuru, özünü dərketmə qabiliyyətinin inkişaf etdirilməsi üçün mühüm addımlar atırdı. O, sabahla yaşayır, keçmişi düzgün dəyərləndirirdi və bunu başqalarına da öyrədirdi. Heydər Əliyevin yaradıcılığa yönəldilən yenilməz səyləri, tükənməz enerjisi və Vətənə hədsiz sevgisi sayəsində bu gün Azərbaycan mədəniyyəti bütün dünyada tanınır. Hər il daha çox insan Azərbaycanı, onun unikal tarixi-mədəni irsini, o cümlədən Ulu Öndərimizin irsini kəşf edir.

Ulu öndər Heydər Əliyevin adı daim xalqımızın, ölkəmizin, mədəniyyətimizin dirçəlişi ilə birgə anılacaq.




# Ulu Öndər haqqında dəyərli tədqiqat əsəri

Azərbaycan xalqının Ulu Öndəri, müasir Azərbaycan dövlətçiliyinin, Azərbaycanda yeni ordu quruculuğunun memarı Heydər Əliyevin anadan olmasının 95 illiyi ərəfəsində Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının dosenti, tarix elmləri doktoru Mehman Süleymanovun "Azərbaycanda Ali Baş Komandanlıq İnstitutunun Heydər Əliyev mərhələsi" adlı irihəcmli tədqiqat əsəri işıq üzü görmüşdür. Bu tədqiqat əsəri Ulu Öndərin müasir Azərbaycanın hərbi təhlükəsizlik sisteminin yaradılması, bu sistemin möhkəmləndirilməsi və inkişaf etdirilməsi sahəsindəki tarixi fəaliyyətinin fundamental tədqiqinə həsr edilmişdir. Kitabın elmi redaktoru Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor, Azərbaycanda Əliyevşünaslıq məktəbinin yaradıcılarından biri olan Əli Həsənovdur. Kitaba yazdığı ön sözdə Əli Həsənov Ümummilli Liderin dövlətçilik fəaliyyətinə işıq salmaqla bu dahi şəxsiyyətin Azərbaycanda hərb quruculuğu sahəsindəki fəaliyyətinin də dərindən öyrənilməsinin əhəmiyyətini qeyd etmişdir.

Adı çəkilən kitabda Ulu Öndərin hərb quruculuğu sahəsindəki fəaliyyətinin tədqiqinə Ali Baş Komandan İnstitutu prizmasından yanaşılmışdır. Müəllifin də qeyd etdiyi kimi, Heydər Əliyevin xalqın istəyi ilə Bakıya qayıdışına qədər Azərbaycan Ordusunun, bütünlükdə Azərbaycanın müdafiəsinin təşkilinin ağır böhrana düşməsinin başlıca səbəblərindən biri respublikada Ali Baş Komandanlıq institutunun formalaşdırılmaması, müstəqilliyini yenicə əldə etmiş ölkənin və xalqın müdafiəsinə dövlətin rəhbərliyinin təmin edilməməsi idi. Bu isə ordunun parçalanmasına, xalqın çox ciddi sınaqlarla qarşılaşmasına yol açdı, dövlət idarəçilik sistemi iflic vəziyyətə düşdü. Yalnız təcrübəli dövlət xadimi Heydər Əliyevin Naxçıvandan Bakıya dönüşündən sonra xalq özündə bir inam və sabaha ümid hiss etməyə başladı. Heydər Əliyev addım-addım ölkəni, ölkənin ordusunu böhrandan çıxarmağa başladı, Azərbaycanı Ermənistanın və onun havadarlarının təcavüzündən qorumağa qadir olan ordusunun əsasını qoydu, dövlətin və xalqın yaradıcı potensialını həm də güclü ordunun yaradılmasına istiqamətləndirdi.

M.Süleymanov tərəfindən Heydər Əliyevin hələ Sovet hakimiyyəti illərində Azərbaycanda milli hərbi işin canlandırılması sahəsində gördüyü işlər arxiv mənbələri əsasında dərindən təhlil edilmişdir. Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti illərində bu Muxtar Respublikanın Ermənistanın təcavüzündən müdafiəsi, Naxçıvan ərazisində yerləşən Sovet hərbi hissələrinin bütün əmlakının Muxtar Respublikada saxlanılması sahəsindəki fəaliyyəti də ilk dəfədir ki, geniş şəkildə təhlil edilmişdir.

Ümumən, adı çəkilən kitabda hərb quruculuğu sahəsində Azərbaycanda Heydər Əliyev siyasətinin formalaşması və həyata keçməsi haqqında geniş bilik əldə etmək mümkündür və ona görə də bu tədqiqat əsəri Ulu Öndərin doğum günü ərəfəsində Azərbaycan Ordusunun tarixi ilə, ordu quruculuğu məsələlərinin nəzəriyyəsi və praktikası ilə maraqlananlar üçün qiymətli bir töhfə sayıla bilər.

**"Azərbaycan Ordusu"**

# “Biz də özümüzü sırada hiss edirik”

*İkinci Dünya müharibəsinin bəşəriyyətə vurduğu yaralar hələ də sağalmayıb, yaddaşlardan silinməyib. İllər keçsə də, bu ölüm-dirim müharibəsi unudulmayacaq. Keçmiş SSRİ-nin elə bir ucqar məkanı yoxdur ki, bu vahiməli və dəhşətli müharibə həmin yerlərə aclıq, səfalət, müsibət, ölüm və göz yaşları gətirməsin. Bir sözlə, İkinci Dünya müharibəsi tarixdə xüsusi iz qoymuşdur.*



Azərbaycan Respublikası Veteranlar Təşkilatında Qələbənin 73-cü ildönümünə həsr olunmuş tədbir keçirildi. Tədbirdə İkinci Dünya müharibəsi veteranları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər.

Mərasimdə ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin, o cümlədən İkinci Dünya müharibəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirdi ki, o dövrdə Vətən anlayışı milliyyətindən, dilindən, dinindən, yaşayış yerindən asılı olmayaraq hər bir insan üçün əziz və müqəddəs idi. "İkinci Dünya müharibəsi başlayanda SSRİ-də yaşayan bütün millətlərin nümayəndələri Vətəni qorumaq üçün müdafiəyə qalxdılar. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ilə hər kəs səfərbərliyə çağırıldı. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, müttəfiq respublikalardan təkcə Azərbaycandan ön cəbhəyə 600.000 insan səfərbər olunmuşdu. Onlardan 300.000 nəfəri döyüşlərdə qəhrəmancasına həlak olmuş, 300.000 nəfəri geri qayıtmışdır. Böyük Vətən müharibəsinin xalqımıza vurduğu yaraların acısı hələ də getməyib, hələ də sağalmayıb, fəlakətləri hələ də unudulmayıb. Xalqımız bu müharibədə ön cəbhədəki igidlikləri və hünəri ilə yanaşı, arxa cəbhədə də əzmlə, fədakarlıqla çalışmışlar...

Alman faşızmi üzərində qələbədən 73 il ötür. Lakin zaman müharibə dövrünün qanlı-qadalı illərindən uzaqlaşdıqca, o günlərin qəhrəmanlıq və rəşadət salnaməsi bir daha öz möhtəşəmliyi və əzəməti ilə xatirələrdə canlanır".

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-leytenant Arzu Rəhimov alman faşizmi üzərində qələbənin 73-cü ildönümü münasibətilə veteranları təbrik etdi. Natiq İkinci Dünya müharibəsi illərində Azərbaycan övladlarının istər ön xətdə, istərsə də arxa cəbhədə göstərdiyi fədakarlıqlardan söz açaraq bildirdi ki, müstəqilliyimizin bərpasından sonra Böyük Vətən müharibəsi veteranlarının şərəfli adının qayıtması, onlara diqqət məhz ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra baş verdi. Ulu Öndər deyirdi: "Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur".

General-leytenant Arzu Rəhimov Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin həmin ənənələri davam etdirməsindən, veteranların daim diqqət mərkəzində olmasından da söz açdı. Xidmət rəisi veteranlara möhkəm cansağlığı, gənc nəslin azərbaycançılıq, vətənpərvərlik ruhunda tərbiyəsində uğurlar arzuladı.

Müharibə veteranı Fatma Səttarova veteranlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlığını bildirdi.

Veteranlar bildirdilər ki, biz də özümüzü sırada hiss edirik.

Sonda veteranlara hədiyyələr təqdim olundu və xatirə şəkli çəkildi.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 may 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Bala Cəfərli kəndlərində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şıxlar, Qaraqaşlı, Şirvanlı, Novruzlu, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş seminar keçirilib

*Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə 28 aprel - Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş seminar keçirilib. BHİK-nin hissələr üzrə sədrlərinin iştirakı ilə keçirilən seminarda işçilərin sağlam və təhlükəsiz əmək şəraiti ilə təmin olunması, istehsalat qəzalarının qarşısının alınması üçün profilaktik tədbirlərin görülməsi məsələləri müzakirə edilib.*



Seminarı giriş sözü ilə açan Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşova bildirib ki, Ümümdünya Əməyin Mühafizəsi Gününün qeyd edilməsi 1989-cu ilə təsadüf edir. "Həmin tarixdən etibarən Amerika və Kanada zəhmətkeşləri istehsalatda ilk dəfə bədbəxt hadisə nəticəsində həlak olan işçiləri anmağa başlayıblar. Bu təşəbbüs Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən dəstəklənib və 2003-cü ildən etibarən qeyd olunmağa başlanılıb. "28 aprel - Ümumdünya Əməyin Mühafizəsi Günü" hazırda dünyanın 100-dən çox ölkəsində qeyd olunur. Azərbaycan Respublikası 12 may 1992-ci ildə Beynəlxalq Əmək Təşkilatına üzv olmaqla yanaşı, onun 57 Konvensiyasına qoşularaq burada təsbit olunmuş prinsip və normaları da qəbul edib". Sədr həmçinin, bildirib ki, Əməyin mühafizəsi işçilərin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnu təmin etmək məqsədi ilə nəzərdə tutulan texniki təhlükəsizlik, sanitariya, gigiyena, müalicə-profilaktika tədbirləri, normaları və standartları sistemidir: "Əmək Məcəlləsinin 207-ci və 215-ci maddələrinə əsasən, əməyin mühafizəsi üzrə normativ-hüquqi aktların tələblərinə işəgötürən və işçilər tərəfindən əməl edilməsi məcburidir. Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq hər bir müəssisə istehsal etdiyi məhsuldan, gördüyü işdən, göstərdiyi xidmətdən asılı olmayaraq, işçilərinə iş yerlərində sağlam və təhlükəsiz əmək şəraiti yaratmalıdır. İşəgötürən, həmçinin, işçilərin əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl etmələrinə daim diqqət yetirməlidir".

Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının əməyin mühafizəsi şöbəsinin mütəxəssisi Nadir Muradov öz növbəsində "Əməyin mühafizəsi: xüsusən həssas təbəqə - gənc işçilər" mövzusunda çıxış edib. "Bütün dünya üçün aktual olan gənc işçilərin əməyinin mühafizəsinin yaxşılaşdırılması, uşaq əməyinə son qoyulması üçün bu il Ümumdünya Əməyin Mühafizəsi Gününün və 12 iyun Ümumdünya Uşaq Əməyinə qarşı Mübarizə Gününün himayəsi altında "Yeni nəslin təhlükəsizliyi və sağlamlığı" şüarı ilə "Əməyin mühafizəsi: xüsusən həssas təbəqə - gənc işçilər" mövzusunda birgə kampaniya keçirilir", - deyə N.Muradov nitqinə başlayıb. Bu kampaniyanın məqsədi gənclərin təhsil prosesindən əmək prosesinə, uşaqlıq dövründən yetkinlik dövrünə təhlükəsiz və sağlamlığına zərər vurmadan keçməsini təmin etməkdir. Natiq onu da qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işləyən vətəndaşların hüquqlarının müdafiəsinə xüsusi diqqət və qayğı göstərir".



Dövlətimiz tərəfindən təhlükəsiz və sağlam iş yerlərinin yaradılması, istehsalat mədəniyyətinin yüksəldilməsi, əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizəsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bununla yanaşı, iqtisadi uğurlarını daim artırmağa çalışan işəgötürənlər də, ilk növbədə, öz işçiləri üçün layiqli iş yeri yaratmalı, insana və qanuna hörmətini, həm də ümumbəşəri dəyərlərə sədaqətini ifadə etməlidirlər.

Sonda seminar iştirakçılarının sualları cavablandırlıb və xatirə şəkli çəkilib.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda növbəti zabit heyətinin təkmilləşdirilməsi kursu başa çatıb

*Əlahiddə Ümumqoşun Orduda növbəti zabit heyətinin təkmilləşdirilməsi kursunun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib. Əvvəlcə döyüş bayrağı sıra meydanına gətirilib, mərasimə hazırlıqla bağlı məruzə edilib və Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*




Mərasimdə zabit İsmayıl Mədətov çıxış edərək bildirib ki, kurs zamanı Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində müxtəlif ixtisaslar üzrə dərslər keçirilib, trenajorlarda şəxsi heyətin sürücülük və atəş qabiliyyəti praktiki olaraq daha da artırılıb. Kursa cəlb edilmiş zabitlərin virtual təlim meydançasında qazandıqları yeni biliklər real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da təkmilləşdirilib.

Məzunlar söz veriblər ki, kursda qazandıqları yeni taktiki bilikləri xidmət yerlərində uğurla tətbiq edəcək, ordumuzun peşəkarlığının daha da artırılması üçün əllərindən gələni əsirgəməyəcəklər.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu Komandanı general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb. Bildirilib ki, Əlahiddə Ümumqoşun Orduda peşəkar hərbçilərin yetişdirilməsinə xidmət edən digər kurslar kimi zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur. Ordumuzun gücünü nümayiş etdirən hərbi parad və taktiki təlimlərdə qazandığımız nailiyyətlərin məntiqi davamı olaraq Əlahiddə Ümumqoşun Orduda təşkil edilən zabitlərin təkmilləşdirilməsi kursunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Çünki kurslar zamanı hərbi qulluqçuların bilik, bacarıq və peşəkarlıqları daim artırılır. Təbii ki, bütün bunlar da hərb işinə verilən yüksək qiymətdən xəbər verir.

Təbrik oxunduqdan sonra kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar təqdim edilib. Kurs birincisi tərəfindən yaş kötüyünə buraxılış emblemi vurulub və məzunların yuxarı vəzifələrə təyin olunmaları ilə bağlı verilən əmr mərasim iştirakçılarına çatdırılıb. Əmr oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Cəbhə bölgəsində bayram tədbirləri

*Hər bir millətin tarixi onun vətənpərvər övladları tərəfindən yazılır. Vətənimiz qədim dövrlərdən bəri çoxlu sayda igid oğullar yetişdirib və bu proses günü-gündən artan xətlə gedir. İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin qazanılmasında həmyerlilərimizin müstəsna rolu olub. Qəhrəman həmyerlilərimiz cinsindən, dilindən, dinindən asılı olmayaraq yumruq kimi birləşib və düşmənə qarşı vuruşub. Azərbaycanın 600 mindən çox oğul və qızları müxtəlif cəbhələrdə düşmənə qarşı sipər olub. Ölkəmiz gedən döyüşlərdə SSRİ-yə istər canlı qüvvə, istərsə də təchizat və maddi təminat sarıdan dəstək olub.*

Müasir Azərbaycanın qurucusu, dahi şəxsiyyət Heydər Əliyev hər zaman çıxışlarında müharibə veteranlarını yüksək qiymətləndirib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci və faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə ön xətdə yerləşən hərbi hissələrdə kütləvi tədbirlər keçirildi. Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşviqat qruplarının iştirakı ilə keçirilən tədbirlər ön xətdə xidmət edən hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, Vətənin tarixi şəxsiyyətləri, vətənpərvər oğulları haqqında informasiya bazasının möhkəmlənməsində mühüm rol oynayan təbliğat xarakterli tədbirlər silsiləsindəndir.



Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi tərəfindən cəbhə xəttində yerləşən "N" hərbi hissəsində təşkil olunmuş tədbir ordumuzda xidmət edən hərbi qulluqçular tərəfindən böyük maraqla qarşılandı. Tədbir ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan oğul və qızlarımızın xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Əməkdar İncəsənət xadimi zabit Zöhrab İmamquliyev keçirilən tədbirlərin ordumuzun möhkəmlənməsində, savadlı, geniş dünyagörüşünə malik gənc kadrların yetişməsində müstəsna rolundan bəhs etdi. "Torpağımız qədim dövrlərdən bu günlərədək çoxlu sayda qəhrəman oğullar yetişdirib. Onların hər biri sizin üçün - bizim gənc nəslimiz üçün böyük örnəkdir. Hər bir fərd Vətəninin mərd oğullarını tanımalıdır. Millətinin tarixini, milli-mədəni irsini bilməyən fərd əsl vətəndaş ola bilməz. Təbiidir ki, babaları Heydər, Cavanşir, Babək, Şah İsmayıl olan gənc nəslin bu gün əsas vəzifəsi ölkəsinin uğurları üçün çalışmaq, onun ərazi bütövlüyünü qorumaqdır. Hər birimizin borcu Vətənimiz Azərbaycanı istər ölkə miqyasında, istərsə də dünya arenasında layiqincə təmsil etmək, onun uğurunda canımızdan keçməyə hazır olmaqdır".

Polkovnik-leytenant Zöhrab İmamquliyev hərb sahəsində qazanılan uğurların memarının məhz Ulu Öndər olduğunu vurğuladı: "Əbədiyaşar Komandan ordu quruculuğunda və onun möhkəmlənməsində çox işlər görüb. Məhz Heydər Əliyev tərəfindən əsası qoyulan və onun layiqli davamçısı olan Ali Baş Komandan İlham Əliyevin gördüyü işlərin nəticəsidir ki, ölkəmiz hal-hazırda dünyanın rəqabətədavamlı orduları sırasındadır. Ordumuzda peşəkar zabitlərin sayı günü-gündən artmaqdadır. Peşəkar hərbi qulluqçu qarşısıalınmaz ordu deməkdir. Peşəkar ordumuzun ciddi hazırlığının nəticəsi idi ki, 2016-cı il aprel döyüşləri zamanı ordumuz əlində olan imkanların çox az bir hissəsindən istifadə edərək, qısa müddət ərzində işğal altında olan torpaqlarımızın bir hissəsini düşmən tapdağından azad etdi."

Hərbi hissənin nümayəndəsi zabit Səyavuş Dünyamalıyev isə tədbirlərin keçirilməsinin əsgərlərin mənəvi-psixoloji hazırlığının yüksəlməsində, dünyagörüşünün artmasında mühüm rol oynadığını bildirdi. "Ön xətdə xidmət edən əsgər üçün bu tədbir çox mühüm əhəmiyyətə malikdir. Əsgərlərimiz yaxşı döyüşçü kimi düşmənin cavabını layiqincə verməkdədir. Bu günün əsgəri sabahın idmançısı, həkimi və alimidir. Bu gün Vətəni onlar müdafiə edirlər. Sabah onlar ölkəni beynəlxalq arenada təmsil etməyə namizəddirlər. Bunun üçün də hər bir hərbi qulluqçu ölkəsinin tarixi barədə informasiyaya malik olmalıdır."

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin iştirakı ilə vətənpərvərlik mövzusunda mahnılar oxundu. Tədbir geniş, rəngarəng vətənpərvərlik ruhunda konsert proqramı ilə davam etdi.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

## Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən, Armavir vilayətindən hərbi xidmətə çağırılan Davit Aleksanyan Qarabağdan olan əsgərlər tərəfindən məruz qaldığı təhqirlərə dözməyərək hərbi hissəni tərk edib.

Qısa müddət sonra tutulan D.Aleksanyan insidentin səbəblərinin araşdırılması məqsədilə hərbi polisə aparılıb. Erməni hərbçi tez-tez belə təhqirlərə düçar olduğu üçün qaçdığını bildirib.

* * *

Ermənistan ordusunun işğal olunmuş ərazilərimizdə yerləşdirilən bölmələrindən birində Haterk adlandırılan təlim mərkəzində keçirilən məşğələ zamanı qanlı insident baş verib.

Nəticədə 1997-ci il təvəllüdlü, 2017-ci ilin sentyabrında hərbi xidmətə çağırılan Armen İsraelyan ağır yaralanıb.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində növbəti özünə xəsarət yetirmə hadisəsi baş verib.

Ön xətt bölmələrindən birində xidmət edən və dözülməz şərait səbəbindən hərbi hissəni bir neçə dəfə tərk edən Armen Şirinyan adlı hərbi qulluqçu silahdan atəş açaraq özünü yaralayıb. Məlumatda deyilir ki, A.Şirinyan ayaqyoluna getmək adı ilə döyüş mövqeyindən uzaqlaşıb. Atəş səsinə gələn xidmət yoldaşları bir aralıda onu qan içində tapıblar. Ağdərədəki hərbi tibb müəssisəsinə yerləşdirilən əsgərin vəziyyəti ağırlaşdığından Xankəndi hospitalına göndərilib.

Hadisələr ictimaiyyətdən gizlədilir. Faktlarla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

AZƏRBAYCAN ORDUSU

# Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş mini-futbol turnirinə start verildi



*Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2018-ci il üçün təsdiq etdiyi plana əsasən, ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi ilə əlaqədar Azərbaycan Ordusunda bir sıra kütləvi idman tədbirləri keçirilməsi nəzərdə tutulub. Plana uyğun olaraq aprelin 30-da Silahlı Qüvvələrin Hərbi Akademiyasında Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş mini-futbol turnirinə start verildi.*

Tədbirdə Hərbi Akademiyanın rəhbərliyi və müəllim heyəti, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin əməkdaşı, bir sıra fəxri qonaqlar, eyni zamanda Hərbi Akademiyanın və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları iştirak edirdilər.

Tədbirdə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Açılış mərasimində Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev nitq söyləyərək gələn qonaqları və yarış iştirakçılarını salamladı. Mini-futbol turnirində iştirak edən heyətə uğurlar arzulayan natiq, həmçinin ulu öndər Heydər Əliyevin idmana və idmançılara dövlət səviyyəsində göstərdiyi qayğıdan da bəhs etdi. "Xalqımızın ümummilli lideri, dahi şəxsiyyət olan Heydər Əliyev ölkəmizdə idmanın yüksək səviyyədə inkişaf etməsi üçün geniş imkanların yaradılmasında əlindən gələni əsirgəməmişdir. Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə - 1969-1982-ci illərdə bir çox idman kompleksləri, idman meydançaları salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdır. Ulu Öndər tərəfindən göstərilən qayğı ölkəmizdə idmanın inkişafına, istedadlı idmançıların potensial imkanlarının açılmasına xidmət etmişdir. Bunun nəticəsidir ki, idmançılarımız yarışlarda yüksək nailiyyətlər qazanıb, üçrəngli bayrağımızı uca zirvələrdə dalğalandırıblar. Təbii ki, bu uğurların qazanılmasında ordu sıralarında xidmət edən bir çox hərbçilərin də payı var. Bu gün Mərkəzi Ordu İdman Klubu Azərbaycan Silahlı Qüvvələrini beynəlxalq və respublika səviyyəli yarışlarda peşəkar səviyyədə təmsil edir."



General-leytenant Heydər Piriyev keçirilən mini-futbol turnirinin məqsədini də vurğulayaraq, komandaların hər birindən yüksək nəticə gözlədiyini bildirdi. "Bildiyimiz kimi, bu il Ulu Öndərin anadan olmasının 95-ci ildönümüdür. Bununla əlaqədar respublikamızda bir sıra kütləvi tədbirlərin keçirilməsi planlaşdırılıb. Həmin tədbirlər çərçivəsində Azərbaycan Ordusunda da müxtəlif yarışların keçirilməsi nəzərdə tutulub. Həmin yarışlardan biri də hazırda açılış mərasiminə yığışdığımız mini-futbol turniridir. Əminəm ki, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının hərtərəfli diqqət və qayğısı nəticəsində idmanımız yüksək zirvələri fəth edəcək, idmançılarımız ən parlaq qələbələrini ümummilli liderimiz, xalqımızın dahi və sevimli oğlu Heydər Əliyevin əziz xatirəsinə ithaf edəcəklər."

Çıxış edən digər qonaqlar da xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dönəmlərdə idmanı, onun inkişafını, maddi-texniki bazanın yaradılmasını, idmançılara dövlət səviyyəsində qayğı göstərilməsini, fiziki cəhətdən sağlam gənc nəslin yetişdirilməsini daim nəzarətdə saxladığını vurğuladılar.



Yarışın ilk iki günündə təhsil ocağının kursantlarından formalaşdırılan komandalar arasında oyunlar baş tutdu.

Xatırladaq ki, mini-futbol turnirində Hərbi Akademiyanın birinci və ikinci kurslarında təhsil alan, dörd yığma komandadan ibarət heyət iştirak edəcək. Yarışlar mayın 10-na kimi davam edəcək. Yarışın sonunda qaliblərə kubok və fəxri fərmanlar təqdim olunacaq.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# MOİK-in yetirmələri güləş üzrə 33-cü Dünya çempionatında iştirak edəcəklər

Ölkəmizdə hər sahəyə olduğu kimi idmana da xüsusi diqqət və qayğı göstərilir. İdmançılarımız təkcə ölkə daxilində deyil, beynəlxalq turnirlərdə də öz güclərini sınayır, yüksək pillələrə yiyələnirlər. Onlar üçrəngli bayrağımızı uca zirvədə dalğalandırır, Dövlət himnimizi bütün dünyada səsləndirirlər.

Respublikada idmanın populyarlaşması və dövlət qayğısı ilə hərtərəfli təmin edilməsi ordu idmanına da öz müsbət təsirini göstərməkdədi. Bu proses ümummilli lider Heydər Əliyevdən sonra onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən davam etdirilir. Ölkə başçısının idmana və idmançılara, ordu idmanının inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində Azərbaycan idmançıları beynəlxalq idman arenalarında yeni-yeni uğurlar əldə edirlər.

Bu gün ordu idmanı sahəsində qazanılan uğurlarda Mərkəzi Ordu İdman Klubunun rolu danılmazdır. Mərkəzi Ordu İdman Klubunun nümayəndələri hər il Beynəlxalq Hərbi İdman Şurasının Avropa Assambleyasında və Beynəlxalq Baş Assambleyasında iştirak edirlər.

Hazırda klubda idmanın 20 növü üzrə bölmələr fəaliyyət göstərir. Azərbaycan milli komandasının əksər üzvləri MOİK-in təmsilçiləridir. Olimpiya, dünya, Avropa və digər beynəlxalq yarışlarda qazanılan medalların bir hissəsi klubun idmançılarının payına düşür.

Beynəlxalq Hərbi İdman Şurasının keçirtdiyi yarışlarda dəfələrlə Azərbaycan Respublikasının Silahlı Qüvvələrini layiqincə təmsil edərək, Vətənə çoxlu medallar gətirmiş Mərkəzi Ordu İdman Klubunun yetirmələri növbəti dəfə 14-20 may 2018-ci il tarixində Rusiya Federasiyasının Moskva şəhərində idmanın güləş növü üzrə keçiriləcək 33-cü Dünya çempionatında güclərini sınayacaq. Bu yarışda 4 nümayəndə heyəti olmaqla, müxtəlif çəki dərəcələrində sərbəst güləş üzrə 13 idmançı, Yunan-Roma güləşi üzrə 9 idmançı, 2 hakim və 4 məşqçi ölkəmizi təmsil edəcək. İnanırıq ki, hərbçi pəhləvanlarımızın hər biri uğurlu nəticə əldə edərək ölkəmizə medallarla qayıdacaq.

**Baş leytenant,**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Ümumordu iməciliyi keçiriləcək

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci və faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə mayın 5-də Əlahiddə Ümumqoşun Orduda, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ərazilərində ümumordu iməciliyi təşkil olunacaq.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ekoloji mühitin sağlamlaşdırılması və ərazinin abadlaşdırılması məqsədilə təşkil olunacaq iməcilik vaxtı hərbi şəhərciklərdə, eləcə də hərbi hissələr, inzibati, xidməti bina və obyektlərin ətrafında müxtəlif növ ağaclar, gül kolları əkiləcək və yaşıllıq zolaqları salınacaq.

Həmçinin, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün general və sərkərdələrinin, Azərbaycanın Milli qəhrəmanlarının abidələri və məzarları yerləşən ərazilərdə də abadlıq işləri aparılacaq.

Quliyev Əziz Qadir oğluna 2015-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Lalə HÜSEYNOVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 282 Nüsxə 3525 |